

*Oqtay RZA,*
*Əməkdar müəllim,*
*şair*

## QƏRİB

Yanvarın 6-da AMEA-nın həqiqi üzvü, görkəmli alim-pedaqoq Qərib Məmmədovun 70 yaşı tamam olur. Ona möhkəm sağlamlıq və yeni nailiyyətlər arzulayırıq.

***Əyilməz vüqaridır***
***Torpaq - boz, qara torpaq!***
***Ürəyini ağrıdır***
***Baharda sarı torpaq.***
***Harayını eşidib***
***Baltalanan meşənin,***
***Deyir: "Ümidgahımız -***
***Təbiəti qoruyaq!***
***Gözəlliyə, İNSANA***
***Məhəbbəti qoruyaq!***
***Dərin qata enənlər***
***Sevə bilməz dayazlıq;***
***Çəkək, bərpa olunsun***
***Ekoloji tarazlıq!"***
***Qisməti, mükafatı -***
***Yaşıl-yaşıl duyğular;***
***Qərib Şamil oğlunun***
***Dünya boyda qəlbi var!***
***Vətəndən qoparılmış***
***Əyalətdə doğulub;***
***Şərin, zorun sıxdığı***
***Elat heyif, dağılıb...***
***Ayrılıq ocağında***
***Oda yanır, yanır hey;***
***Əsrin gərgin çağında***
***Ötən günü anır hey...***
***Hələlik yurd körpüsü -***
***Xatirələr, yuxular;***
***Qərib Şamil oğlunun***
***Dünya boyda qəlbi var!***
***Sara - tale həmdəmi,***
***Təranə göz nurudur;***
***Razi isə sabaha***
***Yol gedən qürurudur.***
***Nicat adlı nəvəsi***
***Babalıq uğurudur.***
***Niyyəti aydın, qəti -***
***Çeşmələrdən durudur.***
***Deyir ki, zövq alıram***
***İstedadlı gəncliyin***
***Elmi yüksəlişindən;***
***Əzizim Xəzərin də***
***Həyatından, işindən.***
***İstiqbal göylərində***
***Süzür səyyar xəyalı***
***Ondan bilik götürüb***
***Neçə ustad, ziyalı.***
***Kasıbla çörək bölən,***
***Qərib görüb, kövrələn***
***Qərib Şamil oğlunun***
***Ünsiyyət məktəbi var;***
***Dünya boyda qəlbi var,***
***Dünya boyda qəlbi var!***

---

Ədalət.- 2017.- 6 yanvar.- S. 4.